**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№366/3** **24 iyun 2024-cü il**

## “Auditor adı almaq üçün imtahan proqramı”nın təsdiq edilməsi barədə

Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 6.3-cü bəndinə uyğun olaraq qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla Kadr hazırlığı idarəsi (E.Behbudova) tərəfindən hazırlanmış “Auditor adı almaq üçün imtahan proqramı”nın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Auditor adı almaq üçün imtahan proqramı” Şura üzvlərinin irad və təklifləri nəzərə alınmaqla təsdiq edilsin (əlavə olunur) və 2025-ci il 01 yanvar tarixindən tətbiq edilsin.

2. Auditorlar Palatasının auditor adı almaq üçün İmtahan Komissiyasına (C.Həsənov) və Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki:

2.1. bir ay müddətində qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla auditor adı almaq üçün imtahanların keçirilməsi prosesinin təkmilləşdirilməsinə dair təkliflərini təqdim etsinlər;

2.2. bir ay müdətində auditor adı almaq üçün imtahanlara hazırlıq kurslarının təşkili ilə əlaqədar təkliflərini hazırlayıb təqdim etsinlər.

3. Auditorlar Palatası Şurasının “Auditor adı almaq üçün imtahanların proqramı” barədə 2019-cu il 31 oktyabr tarixli 313/4 nömrəli qərarı 2025-ci il 01 yanvar tarixindən qüvvədən düşmüş hesab edilsin.

4. Bu qərarın və “Auditor adı almaq üçün imtahan proqramı”nın mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**